# Türkiyə və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq yüksələn xətlə inkişaf edir



## Təhsil naziri Türkiyə milli təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Təhsil naziri Emin Əmrullayevin dəvəti ilə Türkiyə Respublikasının milli təhsil naziri Ziya Selçukun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib.

Səfər çərçivəsində qonaqlar Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub. Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsi anılıb, məzarları üzərinə qərənfillər düzülüb, həmçinin Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət edilib.

Mayın 27-də təhsil naziri Emin Əmrullayev Türkiyənin milli təhsil naziri Ziya Selçukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Təhsil naziri Emin Əmrullayev qonaqları ölkəmizdə qarşılamaqdan məmnunluğunu və bu görüşün iki qardaş ölkə arasında əlaqələrin möhkəmlənməsində mühüm addım olduğunu bildirib.

Öz növbəsində Türkiyənin milli təhsil naziri Ziya Selçuk dəvətə və səmimi qarşılanmaya görə təşəkkürünü bildirib.

Görüşdə təhsil sahəsinə dair geniş fikir mübadiləsi aparılıb, Azərbaycan və Türkiyə arasında təhsil sahəsində, o cümlədən peşə təhsili sahəsində əməkdaşlıq istiqamətləri və gələcək perspektivlər müzakirə edilib.

## Təhsil naziri türkiyəli həmkarı ilə Qubada



Təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Türkiyənin milli təhsil naziri Ziya Selçuk ilə birlikdə Quba şəhərini ziyarət edib.

Ziyarət zamanı nazirlər Quba şəhərinin İqriq kəndində yerləşən Türk əsgərinin məzarlarının önünə gül dəstələri qoyublar. Daha sonra nümayəndə heyəti Azərbaycan-Türkiyə qardaşlıq parkını ziyarət edib.

Səfər çərçivəsində nazirlər Quba Soyqırımı Memorial Kompleksində olublar. Türkiyənin milli təhsil naziri Ziya Səlçuka 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırım haqqında ətraflı məlumat verilib.

## STEAM Mərkəzinin açılışı olub



Təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli təhsil naziri Ziya Selçukla birlikdə Quba şəhərindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılan STEAM Mərkəzinin açılışında iştirak ediblər.

Açılış mərasimindən sonra nazirlər mərkəzdə yaradılan şəraitlə tanış olublar. Emin Əmrullayev türkiyəli həmkarına ölkəmizin ümumi təhsil müəssisələrində icra olunan "STEAM Azərbaycan" layihəsi barədə ətraflı məlumat verib.

Daha sonra ölkəmizin təhsil ictimaiyyəti və ekspertlərin iştirakı ilə "Açıq dərs" təşkil olunub.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə start götürüb. Təhsil naziri Emin Əmrullayev və milli təhsil naziri Ziya Selçuk təhsil sahəsinin inkişafı ilə bağlı fikirlərini bölüşüb, gənclərə öz tövsiyələrini veriblər. Hər iki nazir ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.